

# Qısa, şərəfli ömür yolu

***Yardımlı rayonunun Zevin kəndində boya-başa çatan Tərlan Gölişad oğlu Eyniyev üçün ən böyük sevgi millət, yurd, Vətən sevgisi idi. Məhz elə buna görə də İkinci Qarabağ müharibəsində canını qurban verməklə 30 il yağıya əsir düşmüş torpağı vətən etməklə onu bir daha milyonların gözündə müqəddəsləşdirdi. Və bu ilahi sevginin gücü qəhrəman Tərlanı ömrünün 27-ci ilində ürəkdən bağlandığı Vətən səmasının əbədi parlaq Günəşinə döndərdi..***

Ürəyində mənfur erməni dığalarına qarşı kin, nifrət Tərlan müstəqil həyata qədəm qoyur. Nəcib, gözəl əməlləri hesabına el -obada sevilən yeniyetməni 2010-cu ildə ordu sıralarına çağırırlar. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında doğma Azərbaycanına ləyaqətlə xidmət edir, hər an onun yolunda canından keçməyə hazır olur. Əsgərlər, zabitlər Tərlanın təmiz ürəyinə, qeyrətinə heyran kəsilirlər. Fəqət, yağı düşməndən qisas almaq üçün məqam axtaran Vətən sevdalısı əsgərlik həyatını başa vurduqdan sonra könüllü olaraq Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsində çavuş rütbəsində hərbi xidməti davam edir və əzəli, əbədi yurd yerimiz Qarabağ torpaqların azad olunmasında son nəfəsə qədər düşmənlə vuruşmağa and içir.

Qəlbində Vətəninə ilahi bir məhəbbət yaşadan Tərlan cəsurluğu, igidliyi ilə həmişə komandirlərin diqqət mərkəzində olur. Heç bir nöqsana yol vermir, daimi nümunəvi xidməti onu başqalarından fərqləndirir, hərbi tapşırıqlarını yerinə yetirən zaman əla döyüşçü keyfiyyətlərini göstərməklə özünə hörmət qazanır. Həm də bütün bunlara görə o, dəfələrlə özündən yuxarı vəzifəli komandirləri tərəfindən təşəkkürnamələr alır.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Tərlan Vətən müharibəsində Cəbrayılın azadlığı uğrunda gedən haqq savaşımızda döyüşə atılır. İlk gündən mərdliklə vuruşur, düşmənin çoxlu sayda canlı qüvvəsini, texnikasını sıradan çıxardır. Yağıya qan qusdurmaqla neçə-neçə ağır, qeyri-bərabər döyüşlərdən qalib çıxır. Düşdüyü odun-alovun içində həmişə cəsurluq, qəhrəmanlıq nümayiş etdirən Tərlan Eyniyev strateji əhəmiyyətli yüksəklik uğrunda gedən döyüşlərdə düşmənin snayperinə tuş gəlir. Oktyabrın 5-də Vətən eşqi ilə döyünən ürəyi dayanır. Qorxmaz döyüşçü canından artıq sevdiyi Azərbaycan torpaqlarının bölünməzliyi yolunda canını qurban verməklə əbədi bir ömür qazanır.

Tərlanın qısa, şərəfli ömür yolu öz xalqı üçün örnəkdir. Torpağı qanı ilə Vətən edən Yardımlının qartal balası ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görülübdür.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyini üzvü***

**Unikal.- 2022- ci il.- 10 iyun.- S. 13.**